***Mayın 15-də CISCO şirkətinin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevlə bu şirkətin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer, vitse-prezidenti Qay Ditrix və CISCO rəhbərliyinin digər nümayəndələri arasında videokonfrans keçirilib. Həmin videokonfransda bəhs olunan məsələlərə toxunmazdan əvvəl xatırladaq ki, Azərbaycanla uzun müddət müxtəlif sahələrdə əməkdaşlıq edən CISCO şirkəti səmərəli fəaliyyəti, müasir texnologiyaların uğurlu tətbiqi ilə bütün dünyada nüfuz qazanıb. Sürətlə rəqəmsallaşan Azərbaycan iqtisadiyyatında adı çəkilən şirkət tərəfindən prioritet istiqamətlər üzrə layihələrin reallaşdırılması üçün respublikamızda əlverişli şərait yaradılıb.***

# Azərbaycanın CISCO şirkəti ilə əməkdaşlığı getdikcə genişlənir




Dövlətimizin başçısı İlham Əliyevin bu il yanvarın 20-də Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfəri çərçivəsində Davosda adı çəkilən şirkətin rəhbər şəxsləri ilə görüşdə də bu barədə ətraflı danışılaraq, CISCO üçün Azərbaycanda çox böyük biznes potensialının mövcud olduğu vurğulayıb. Azərbaycan Prezidenti, eyni zamanda, son illərdə respublikamızda aparılan islahatların artıq müsbət nəticələr verməsi, şəffaflığın və hesabatlılığın artması, mövcud investisiya mühitinin son dövrlərdə daha da yaxşılaşması, vergi və gömrük sahələrində reallaşdırılan uğurlu islahatlar, inzibatçılığın asanlaşması, "ASAN xidmət"in və DOST agentliyinin səmərəli fəaliyyəti, dövlət tərəfindən göstərilən xidmətlərin rəqəmsallaşdırılması barədə geniş məlumat verib.

CISCO kimi nüfuzlu şirkətlərin Azərbaycana cəlbinə xüsusi diqqət göstərilməsi təsadüfi deyil. Burada əsas məqsəd bir tərəfdən ölkəyə yatırılan sərmayənin həcminin artırılması və xarici investorların Azərbaycana olan inamının möhkəmləndirilməsidirsə, digər tərəfdən müasir texnologiyalarını geniş tətbiqi ilə iqtisadiyyatın, xüsusilə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsidir. Məhz elə buna görə də son bir ildə Azərbaycanda xarici kapitalın iştirakı ilə yaradılan birgə müəssisələrin sayının 70 faizə qədər artması da islahatların səmərəliliyini, Azərbaycan biznes mühitinin cəlbediciliyini sübut edən ciddi bir indikatordur.

Videokonfransda CISCO şirkətinin vitse-prezidenti Qay Ditrix çıxışında üç sahəni əhatə edəcəyini, "Smart ölkə", təhsil və kibertəhlükəsizlik məsələlərinin Azərbaycan Prezidenti tərəfindən qarşıya qoyulan prioritetlər olduğunu qeyd edib.

Şirkətin vitse-prezidenti daha sonra deyib: "Ağıllı şəhər" layihəmiz yəqin ki, xatirinizə gəlir. Biz, əslində, "Ağıllı avtovağzal" ilə başladıq və şəhərdə həmin sahəyə aid bütün müxtəlif cəhətləri əlavə etdik. Özü də bu addımı hərtərəfli sınaq formatında atdıq. Nəticə inanılmaz dərəcədə uğurlu oldu. Çoxsaylı müsbət rəylər daxil oldu. Çox yaxşı məlumatlar toplanıldı".

Qay Ditrix nitqində, həmçinin ölkəmizdə birgə layihələrin uğurla icra olunması, Azərbaycanın müvafiq strukturları ilə səmərəli əməkdaşlığın həyata keçirilməsi məsələlərinə də toxunub. Eyni zamanda, təmsil etdiyi CISCO ilə "Quantelo" şirkəti arasında həyata keçiriləcək əməkdaşlığın perspektivləri barədə danışıb, vahid məlumatlar sisteminin yaradılması istiqamətində görülən işləri qeyd edib və bunun ümumi daxili məhsulun artımı, iş yerlərinin yaradılması və innovasiyaların tətbiq edilməsinə müsbət təsir göstərəcəyini diqqətə çatdırıb. Qay Ditrix "Ağıllı məktəblər" layihəsinə toxunaraq deyib: "Ümumi məqsədimiz bir-biri ilə bağlantısı olan "Ağıllı məktəblər" və təhsil proqramlarını yaratmaqdır ki, bu sahədə qlobal liderlik qazanılsın. Sizin qeyd etdiyiniz miqyas və öhdəlik tam uyğundur. Biz bunun öhdəsindən gələ və təhsilin səviyyəsini qaldıra bilərik. Həmin bir-biri ilə bağlantısı olan məktəblər vasitəsilə Sizin dünyadakı statusunuz qalxacaq".

Şirkətin vitse-prezidenti çıxışında, həmçinin su ehtiyatlarının idarə edilməsi, "Ağıllı kənd təsərrüfatı" layihələrinin dünyanın hər yerində mühüm çağırış kimi səslənməsi, bu sahədə ən müasir texnologiyalara malik olduqlarını, Azərbaycanın da belə taleyüklü məsələlərə həssaslıqla yanaşdığını vurğulayıb.

Prezident İlham Əliyev çıxışında əvvəlcə son videokonfranslarda CISCO şirkətinin avadanlığından istifadə edildiyini, texniki nöqteyi-nəzərdən həmin tədbirlərin yüksək səviyyədə gerçəkləşdiyini diqqətə çatdırıb: "Əgər türkdilli dövlətlərin Sammiti cəmi bir neçə dövləti əhatə edirdisə, ikinci tədbirə gəldikdə, iştirakçılar qırxdan artıq idi. Orada, həmçinin beynəlxalq təşkilatlar var idi. Yeri gəlmişkən, ilk dəfə idi ki, Qoşulmama Hərəkatı və Avropa İttifaqı eyni tədbirdə iştirak edirdi. Əvvəllər, bu, heç zaman baş verməmişdir. Azərbaycan həmin iki mühüm beynəlxalq tədbiri başladı. Təbii ki, onların hər ikisi koronavirusla və beynəlxalq səviyyədə onunla mübarizə ilə əlaqəli idi. Sizə deyə bilərəm ki, texniki dəstək əla idi. Mən bu fürsətə görə minnətdaram. Hazırda bu imkanlardan sizinlə söhbət etmək üçün istifadə edirik. Yeri gəlmişkən, sizə deyə bilərəm ki, mənim sizin əla sisteminiz vasitəsilə həmkarlarımızla, yəni, dövlət başçıları ilə artıq bir neçə söhbətim olub. Lakin bu, ilk dəfədir ki, mən şirkətin rəhbərləri ilə bu cür söhbət edirəm. Fikrimcə, xoş təsadüfdür ki, bu, CISCO-dur".

Dövlətimizin başçısı daha sonra Davosda keçirilən görüşdən sonra CISCO ilə birgə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində böyük irəliləyişə nail olunduğunu, "Ağıllı şəhər" layihəsi sahəsində işlərin yaxşı getdiyini vurğulayıb. Eyni zamanda, Azərbaycanın yeni "Smart ölkə" konsepsiyasını dəstəklədiyini, bu layihənin, bir növ "yol xəritəsi"nin hazırlanmasının zəruriliyini də bildirib. Prezident İlham Əliyev bildirib: "Bundan sonra, qarşımızda tam mənzərə aydınlaşacaq. Atacağımız addımların planı hazır olacaq, yekun nəticə çıxacaq və bu nəticəyə nail olmaq üçün hansı növ ehtiyatların toplanmasına ehtiyac duyulduğunu da biləcəyik. Hazırkı vəziyyətdə "bir-biri ilə bağlantısı olan məktəblər" və təhsil proqramı üçün verdiyiniz dəstək çox vacibdir, çünki sizə məlumat vermək istəyirəm ki, məktəblərimiz və universitetlərimiz koronavirusa görə martın əvvəlindən bağlanıb və tədris ilinin sonuna qədər onlar, birmənalı olaraq, açılmayacaq...".

Ölkə rəhbəri görüşdə kibertəhlükəsizlik, kənd təsərrüfatının rəqəmsallaşdırılması, su ehtiyatlarının düzgün qiymətləndirilməsi, layihənin prioritetlərinin müəyyənləşdirilməsi, su ehtiyatlarının və balansın elektron idarə edilməsi kimi digər tədbirlərin icrası ilə bağlı fikirlərini də diqqətə çatdırıb.

Videokonfransda səsləndirilən məsələlər bir daha göstərir ki, bu gün qlobal enerji və nəqliyyat-kommunikasiya layihələrinin uğurla gerçəkləşdirilməsi, Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın rolunun artması, neft strategiyasının milli mənafelərə uyğun davam etdirilməsi, infrastrukturun bütün sferalarda yeniləşdirilməsi iqtisadi qüdrətimizi daha da artırır. İqtisadiyyatın modernləşməsinə dəstək verən siyasətin dərinləşdirilməsi, qeyri-neft sektorunun sürətlə inkişaf etdirilməsi müsbət nəticələrlə nəzərə çarpır. Bütün sahələrdə əldə olunan yüksək göstəricilər isə ən yaxın vaxtlarda qarşıya qoyulan vəzifələrin uğurla gerçəkləşdiriləcəyinə əminlik yaradır.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***